# Əcnəbi tələbə sorğusunun hesabatı

**Keyfiyyətin Təminatı Şöbəsi**

**2025**

# MÜNDƏRICAT

Xülasə ........................................................................................................................ 2
Arxa plan və məqsədlər .........................................................................................................2
Sorğu təhlil və nəticələri.........................................................................................................4
Tövsiyə ........................................................................................................................ 6
Əlavə .........................................................................................................................7

## XÜLASƏ

Bu hesabat, Azərbaycan Texniki Universitetində (bundan sonra AzTU) 2025-ci ilin yanvar-mart ayları ərzində əcnəbi tələbələr arasında keçirilmiş məmnunluq sorğusunun nəticələrinin əsasında tərtib edilmişdir.

Sorğunun məqsədi əcnəbi tələbələrin universitet həyatında qarşılaşdıqları çətinliklər, təhsil prosesi ilə bağlı məmnunluq səviyyələrini və inkişaf üçün potensial sahələri müəyyən etmək olmuşdur. AzTU-da bakalavr dərəcəsində təhsil alan 264 əcnəbi tələbədən 95-nin iştirak etdiyi sorğuda tələbələrin tədris prosesi, onlara göstərilən konsaltinq xidmətlər, dərsdənkənar tədbirlərdə aktivlikləri, universitetlə bağlı görmək istədikləri dəyisişlik, imkanlar və s. kimi mövzular öz əksini tapmışdır.

Əldə olunan nəticələr tələbələrə təqdim edilən tədris-təlim keyfiyyətinin daha da inkişaf etdirilməsi, beynəlxalq tələbələrlə bağlı siyasətini, strateji planlarını və marketinq fəaliyyətlərini formalaşdırmaq və təkmilləşdirmək üçün istifadə olunur. Tələbələrin ideya və təklifləri universitetə onların təcrübəsini daha da yaxşılaşdırmaq üçün faydalı mənbə kimi xidmət edir, gələcəkdə bu xidmətlərin təkmilləşdirilməsi üçün əsas götürülür.

## ARXA PLAN VƏ MƏQSƏDLƏR

Azərbaycan Texniki Universitetinin tələbə məmnuniyyətinə dair sorğu 2025-ci ilin yanvar-mart aylarında keçirilmişdir. Əcnəbi tələbələrə bu onlayn sorğuda iştirak etmələri üçün dəvət e-poçt vasitəsilə göndərilmişdir. İştirak könüllü olmaqla, sorğu onlayn olaraq həyata keçirilib və cavab verənlərin məxfiliyi tam təmin olunub. Sorğu Keyfiyyətin Təminatı Şöbəsi tərəfindən hazırlanıb.

Sorğu aşağıdakı istiqamətlər üzrə şaxələnmişdir:

| | | |
|---|---|---|
| 1 | **Demoqrafik göstəricilər** | Vətəndaşlıq |
| | | Yaş |
| | | Cinsiyyət |
| 2 | **Tədris və onu təşkili** | Təhsilalma forması |
| | | Fakültə |
| | | Kurs |
| 3 | **Universitetin seçilməsi və ümumi məmnunluq** | Universiteti seçmənin əsas səbəbləri |
| | | Universitetdən məmnunluq səviyyəsi |
| | | Universitetin digər əcnəbi tələbələrə tövsiyə olunması |
| 4 | **Akademik heyət və tədris** | Tədris və akademik proqramların keyfiyyətindən razılıq səviyyəsi |
| | | Akademik heyətin əlçatan olması |
| 5 | **Sosial mühit və münasibətlər** | Universitet daxilində ayrı-seçkilik və təzyiqə məruz qalma |
| | | Universitetdə həmrəylik və bağlılıq hissi |

| | | |
|---|---|---|
| | | Dərsdənkənar tədbirlərdə iştirak |
| 6 | **Xidmətlər və dəstək** | Universitetin beynəlxalq tələbələrə göstərdiyi konsaltinq xidmətlərinin qiymətləndirilməsi |
| 7 | **İnkişaf və tövsiyələr** | Universitetdə təkmilləşdirmək istədikləriniz |
| | | Görmək istədikləri dəyişiklik və imkanlar |

## SORĞUNUN TƏHLİLİ VƏ NƏTİCƏLƏRİ

### 1. *Demoqrafik göstəricilər*

**1.1.** Sorğuda iştirak edən tələbələrin 66-sı Türkiyə vətəndaşı, 11-i Rusiya, 15 –i Gürcüstan, digər 3 tələbə isə Pakistan, Suriya və İraq vətəndaşıdır. ***(Şəkil 1)***

| **Vətəndaşlıq** | **Tələbə sayı** |
|---|---|
| **Türkiyə Cümhuriyyəti** | **66** |
| **Rusiya Federasiya** | **11** |
| **Gürcüstan** | **15** |
| **Pakistan** | **1** |
| **Suriya** | **1** |
| **İraq** | **1** |

***Şəkil 1.***

**1.2.** Respondentlərin 73,7 % - i ( 70 nəfər) 20 – 25 arası, 23,2 % - i (22 nəfər) 17-19 arası, 3 nəfər isə 26-40 arası yaş göstəricilərini əhatə edir. ***(Şəkil 2)***




***Şəkil 2.***

**1.3.** Sorğuda 81 kişi və 12 qadın olmaqla (2 tələbə cinsiyyətini qeyd etməmişdir) 95 tələbə iştirak etmişdir. ***(Şəkil 3)***




***Şəkil 3.***

## 2. *Tədris və onun təşkili*

**2.1.** Təhsilalanlar arasında 90 nəfər əyani, 5 nəfər qiyabi təhsil alır. ***(Şəkil 4)***




***Şəkil 4.***

**2.2.** Sorğuda iştirak edən 7 fakültə və Beynəlxalq Biznes məktəbi arasında daha çox aktivlik 63 tələbə ilə İnformasiya və telekommunikasiya fakültəsinin tələbələri arasında müşahidə olunur. Daha sonra 13 tələbə ilə Maşınqayırma və robototexnika fakültəsi, hər birindən 5 tələbə olmaqla Energetika fakültəsi və Xüsusi texnika və texnologiyalar fakültəsi növbəti sıralardadır. ***(Şəkil 5)***




***Şəkil 5.***

**2.3.** Respondentlər arasında I kurs tələbələr (52 nəfər) daha üstünlük təşkil edir. II kurs tələbələrdən 15 nəfər, III kursdan isə 17 nəfər iştirak edib**. *(Şəkil 6)***




***Şəkil 6.***

## 3. *Universitetin seçilməsi və ümumi məmnunluq*

**3.1.** Universiteti seçmənin əsas səbəbləri kimi tələbələr illik təhsil haqqının digər universitetlərlə müqayisədə çox münasib olduğunu qeyd ediblər. Daha sonra universitetin yerləşmə məkanının da çox uyğun olduğunu vurğulayıblar**. *(Şəkil 7)***




*Şəkil 7.*

**3.2.** Ümumi olaraq universitetdən məmnunluq səviyyəsinə gəldikdə 40 % respondent -38 nəfər razı olduğunu, 27,4% - 26 nəfər çox məmnun olduğunu, 20% - 19 nəfər qərarsız olduğunu, 9,5 %- 9 nəfər narazı olduğunu, digərləri isə çox narazı olduğunu qeyd edib.***(Şəkil 8)***




*Şəkil 8.*

**3.3.** AzTU-nu digər əcnəbi tələbələrə tövsiyə edərdinizmi? sualına respondentlər aşağıdakı kimi cavab veriblər: ***(Şəkil 9)***

***1- Definitely NO, I would NOT recommend /1- Определенно НЕТ, я бы НЕ рекомендовал / 1- Qətiyyən XEYR, tövsiyə etmirəm***

***10- Definitely YES, I would recommend /10- Определенно ДА, я бы рекомендовал / 10- Qətiyyən BƏLİ, tövsiyə edərdim***




*Şəkil 9.*

## 4. *Akademik heyət və tədris*

**4.1.** Tədris və akademik proqramların keyfiyyətindən 44,2% tələbə razı olduğunu, 25,2 % tələbə qərarsız, 19 % isə çox razı olduğunu qeyd edib. ***(Şəkil 10)***




*Şəkil 10*

**4.2.** Akademik heyətin əlçatan olması sualında tələbələrin cavablarına əsasən 42,2% -40 tələbə qismən əlçatan, 28,4%-27 nəfər çox əlçatan, 24,2% -23 nəfər qərarsız olduğunu bidlirib. ***(Şəkil 11)***




*Şəkil 11.*

## 5. *Sosial mühit və münasibətlər*

**5.1.** Universitet daxilində ayrı-seçkilik və təzyiqə məruz qalmısınızmı? sualına respondentlərin 59-u heç vaxt, 26-sı bəzən, 10-u tez-tez cavabını verib. ***(Şəkil 12)***




***Şəkil 12.***

**5.2.** Universitetdə həmrəylik və bağlılıq hiss edirsinizmi? sualını cavablandıran tələbələrin 49,5 %-i bəli, 28,4%-i qismən, 22,1%-i isə xeyr cavabını qeyd edib.***(Şəkil 13)***




***Şəkil 13.***

**5.3.** AzTU-da təhsil alan əcnəbi tələbələr qeyd ediblər ki, 33,7%-i (32 nəfər) ümumiyyətlə dərsdənkənar tədbirlərdə heç vaxt iştirak etmədiyini, 24,2% tələbə (23 nəfər) nadir hallarda, 28,4% tələbə (27 nəfər) isə bəzən iştirak etdiyini qeyd edib. Yalnız 13,7 % tələbə (13 nəfər) tez-tez iştirak etdiyini vurğulayıb. ***(Şəkil 14)***




***Şəkil 14***

## 6. *Xidmətlər və dəstək*

**6.1.** Universitetin beynəlxalq tələbələrə göstərdiyi konsaltinq xidmətlərini 25 (26,3) tələbə əla, 30 (31,6%) tələbə orta, 35 (36,8 %) tələbə yaxşı, digər tələbələr isə pis qiymətləndiriblər. ***(Şəkil 15)***




*Şəkil 15.*

## 7. İnkişaf və tövsiyələr

**7.1.** Universitetdə təkmilləşdirmək istədikləriniz açıq sualına tələbələrin cavabları arasında hər şey əladır, heç bir fikrim yoxdur, auditoriyalar daha yeni avadanlıqlarla təchiz olunsa yaxşı olar, kitabxanaların sayı çox olsun, yaşıl istirahət zonaları artırılsın, praktik və ixtisasa uyğun dərslər daha çox olsun, ingilis dilli müəllimlər daha keyfiyyətli olsun, universitetdə klubların sayı artırılsın kimi cavablara rast gəldik

**7.2.** Tələbələrin görmək istədikləri dəyişiklik və imkanlar siyahısında imtahanların şifahi keçirilməsi, tələbə kartı ilə istifadə olunan elektron ərzaq maşının olması, tənəffüs müddətinin uzadılması, auditoriyaların texniki vasitələrlə daha çox təchiz olunması, CAD və CAM dərslərinin keçirilməsi kimi cavablar üstünlük təşkil edirdi.

## Tövsiyə

Yuxarıda qeyd etdiyimiz kimi təqdim etdiyimiz sorğunun məqsədi əcnəbi tələbələrin universitet həyatında qarşılaşdıqları çətinliklər, təhsil prosesi ilə bağlı məmnunluq səviyyələrini və inkişaf üçün potensial sahələri müəyyən etməkdir. Bu hesabat əsasında **AzTU-da təhsil alan əcnəbi tələbələrlə bağlı** inkişaf və keyfiyyətin artırılmasına müsbət təsir edəcək aşağıdakı **təklif və tövsiyələr** irəli sürülə bilər:

| İstiqamət | Tədbirlər |
|---|---|
| **Tədris və akademik təşkilatlanma** | a) **CAD və CAM fənlərinin əlavə olunması** tələbələrin texnoloji sahələrə marağını nəzərə alaraq prioritetləşdirilməlidir.<br>b) **Praktik və ixtisasa uyğun dərslərin artırılması**, təhsil proqramlarının əmək bazarına uyğunlaşdırılması ilə nəticələnəcəkdir.<br>c) **İngilis dilli müəllim heyətinin keyfiyyəti** artırılmalı, onların kommunikasiya və metodoloji bacarıqları üzrə təlimləri təşkil olunmalıdır. |
| **İnfrastruktur və texniki imkanlar** | a) Auditoriyaların **müasir texniki vasitələrlə (projektor, smart board və s.) təchiz olunması** tələbələrin təhsil keyfiyyətinə müsbət təsir göstərər. |

| | |
|---|---|
| | b) **Yeni və rahat istirahət zonaları (yaşıl sahələr)** yaradılmalı, sosiallaşma mühitinə stimul verilməlidir.<br>c) **Universitetin böyük kitabxana və yeməkxanası** olması haqqında tələbələr daha çox məlumatlandırılmalıdır |
| **Sosial və psixoloji dəstək** | a) Tələbələr arasında **sosial inteqrasiyanı gücləndirən klublar** yaradılmalı və fəallığı təşviq edən tədbirlər keçirilə bilər.<br>b) **Ayrı-seçkilik və təzyiq halları** barədə anonim müraciət sisteminin yaradılması tövsiyə olunur.<br>c) **Həmrəylik və bağlılıq hissini artırmaq üçün** tələbə birlikləri və mədəni tədbirlərin rolu artırılmalıdır. |
| **İmtahan və dərs prosesinin təşkili** | a) **Şifahi imtahan formatı**, bəzi fənlər üzrə alternativ qiymətləndirmə vasitəsi kimi nəzərdən keçirilə bilər.<br>b) **Tənəffüs vaxtlarının artırılması**, tələbələrin zehni yüklənməsinin azaldılması baxımından müsbət nəticə verə bilər. |
| **Məişət və xidmətlər** | a) **Elektron ərzaq avtomatları və tələbə kartı inteqrasiyası**, gündəlik rahatlığı artıracaq təkmilləşdirmələrdəndir.<br>b) **Beynəlxalq tələbələr üçün konsaltinq xidmətləri** daha əlçatan və çoxdilli formatda təqdim olunmalı, bu sahədə sistemli qiymətləndirmə aparılmalıdır. |
| **Ümumi idarəçilik və davamlı inkişaf** | a) Universitetin **yerləşmə yeri və təhsil haqqı ilə bağlı üstünlükləri** daha çox təbliğ olunmalı, tanıtım strategiyalarında bu elementlərə önəm verilməlidir.<br>b) **Açıq suallarda qeyd olunan rəy və gözləntilər** illik planlama prosesində əsas indikator kimi nəzərə alınmalı, tələbələrin səsi siyasətə çevrilməlidir. |

**Hesabatı hazırladı:** Məmnunluq və qiymətləndirmə üzrə mütəxəssis

Həsənova Həmidə

**Razılaşdırılıb**: Keyfiyyətin təminatı şöbəsi müdiri

Pərvanə Mövsümova